## “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı”nın icra vəziyyətinə dair Dövlət Statistika Komitəsinin 2020-ci il üzrə hesabatı

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| 1.2. | Dövlət qurumları tərəfindən korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı illik tədbirlər planlarının hazırlanması, həmin tədbirlər planlarının icrası barədə hesabatın Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi | 2020-2022 | “Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət planı”ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il üzrə tədbirlər planı” Dövlət Statistika Komitəsi kollegiyasının 2020-ci il 29 aprel tarixli, 4 nömrəli qərarı ilə təsdiq edilmiş və bu barədə məlumat elektron qaydada Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilmişdir.<br>“Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət planı”ndan irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2021-ci il üzrə tədbirlər planı” və “Korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı Dövlət Statistika Komitəsinin 2021-ci il üzrə tədbirlər planı” hazırlanmış və Dövlət Statistika Komitəsi kollegiyasının 2020-ci il 16 dekabr tarixli qərarı ilə təsdiq edilmişdir. |
| 1.6. | Korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları ilə bağlı təlimlər keçirilməsi üçün bu sahədə fəaliyyət göstərən ixtisaslaşmış qeyri-hökumət təşkilatlarına dəstək verilməsi | 2020-2022 | Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının üzvü, Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının koordinatoru Əliməmməd Nuriyev tərəfindən 2020-ci il 10 dekabr tarixində Dövlət Statistika Komitəsi aparatının 36 nəfər əməkdaşına videokonfrans formatında təlim keçirilmişdir. Təlimdə əvvəlcədən hazırlanaraq iştirakçılara göndərilmiş təlim materialları əsasında korrupsiya ilə əlaqədar hüquqpozmalar və bu hüquqpozmalara görə məsuliyyət, korrupsiyanın formaları, korrupsiya ilə əlaqədar hüquqpozmaların subyektləri, korrupsiya ilə əlaqədar müraciətlərə baxılmasının xüsusiyyətləri, korrupsiyaya qarşı mübarizəni həyata keçirən orqanlar və digər məsələlər üzrə ətraflı məlumat verilmiş, mövzu ilə bağlı interaktiv şəkildə fikir mübadiləsi aparılmışdır. |
| 1.9. | Dövlət qurumları tərəfindən etik davranış məsələləri ilə bağlı aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və buna görə tətbiq edilmiş intizam tənbehi tədbirləri barədə illik hesabatların hazırlanması və bu barədə məlumatların açıqlanması | 2020-2022 | Dövlət Statistika Komitəsi aparatının 19 nəfər gənc əməkdaşının və yerli statistika orqanlarının əməkdaşlarının iştirakı ilə “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” və “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının qanunları ilə bağlı təlimlər keçirilmişdir. Bununla yanaşı, hazırlanmış təlim materiallarının digər mütəxəssislər üçün də əlçatanlığının təmin edilməsi məqsədilə onların elektron versiyaları Komitənin “Public” mərkəzləşdirilmiş şəbəkə diskində yerləşdirilmişdir.<br>Dövlət Statistika Komitəsində çalışan dövlət qulluqçuları tərəfindən etik davranış qaydaları və prinsiplərinin öyrənilməsi sahəsində işlər il ərzində davam etdirilmiş və |

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| | | | "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, onların etik davranış qaydalarına əməl etmələrinə nəzarət edilmişdir. Etik davranış qaydalarının pozulmasının qarşısının alınması və profilaktikası üzrə həyata keçirilən tədbirlərlə yanaşı, bu cür hallara yol verən dövlət qulluqçularına qarşı intizam tənbeh tədbirləri tətbiq edilmiş və bu barədə müvafiq məlumatlar Komitənin internet səhifəsində yerləşdirilmişdir. |
| 3.3. | Risk qiymətləndirilməsi üçün zəruri olan statistik və digər zəruri məlumatların maliyyə monitorinqi orqanına təqdim edilməsi və ümumiləşdirilməsi | 2020-2022 | Risk qiymətləndirilməsi üçün zəruri olan statistik göstəricilərin siyahısının Dövlət Statistika Komitəsinə təqdim olunması məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Maliyyə Monitorinqi Xidmətinə müraciət edilmişdir (13.07.2020-ci il tarixli, 02/1-386 və 02/1-387 nömrəli məktublar). İqtisadiyyat Nazirliyi cavab məktubunda qeyd edilən statistik göstəricilərin siyahısının Milli Fəaliyyət Planının 3.2-ci yarımbəndinə uyğun olaraq risk qiymətləndirilməsi prosesinin başlanılmasından və bu məqsədlə zəruri olan metodologiyanın müəyyən edilməsindən sonra formalaşdırılacağını, həmin siyahının sözügedən fəaliyyət planının 3.3-cü yarımbəndi üzrə müəyyən olunmuş icraçılara təqdim ediləcəyini bildirmişdir (13.08.2020-ci il tarixli, İN-X/O-8131/2020 nömrəli məktub). Maliyyə Monitorinqi Xidməti isə İqtisadiyyat Nazirliyi tərəfindən Dövlət Statistika Komitəsinə müvafiq cavabın verildiyini bildirmişdir. Sözügedən siyahı Komitəyə daxil olduqdan sonra statistik məlumatlar Dövlət Statistika Komitəsi tərəfindən hazırlanaraq aidiyyəti qurumlara təqdim ediləcəkdir. |
| 4.1. | Dövlət xidmətlərinin göstərilməsində səmərəliliyin artırılması məqsədilə həmin xidmətlər üçün tələb olunan sənədləri elektron qaydada əldə etmək, habelə dövlət orqanlarına gəlmədən həmin sənədləri elektron formada təqdim etmək imkanlarının genişləndirilməsi | 2020-2022 | Dövlət Statistika Komitəsi tərəfindən göstərilən "Rəsmi statistik hesabatların təqdim edilməsi", "Statistik məlumatların buraxılış təqviminin və mətbu məlumatların yayım təqviminin təqdim edilməsi", "Statistik məlumatların (göstəricilərin) verilməsi", "Statistik nəşrlərin (kitabların) onlayn satışı" və "Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin internet vasitəsilə ödənilməsi" elektron xidmətlərinin təkmilləşdirilməsi istiqamətində son illər bir sıra mühüm tədbirlər həyata keçirilmiş, elektron xidmətlərdən istifadə qaydaları barədə təlimatlar yenidən işlənmiş, xidmətlər üzrə yeni bildiriş formaları hazırlanaraq onların avtomatik rejimdə sorğu edən şəxslərə göndərilməsi tam təmin edilmiş, bütün elektron xidmətlərin mobil versiyaları hazırlanaraq Komitənin veb səhifəsinin mobil variantında yerləşdirilmişdir. Bununla yanaşı, "Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin internet vasitəsilə ödənilməsi" elektron xidməti Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" onlayn ödəniş sisteminə, respondentlər üçün fəaliyyətin müvəqqəti |

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| | | | dayandırılması ilə bağlı arayışın yerli statistika orqanlarına gəlmədən elektron təqdim olunması funksiyası yaradılaraq “Rəsmi statistik hesabatların təqdim edilməsi” elektron xidmətinə inteqrasiyası təmin edilmişdir. Görülmüş işlərin nəticəsidir ki, Dövlət Statistika Komitəsi tərəfindən göstərilən xidmətlərlə bağlı “ASAN xidmət indeksi” üzrə Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin apardığı qiymətləndirmənin nəticələrinə əsasən 2020-ci il üçün tərtib edilmiş reytinq cədvəlində Komitə 42 qurum (o cümlədən 25-i mərkəzi icra hakimiyyəti orqanı) arasında 2-ci mövqedə qərarlaşmışdır. |
| 4.2. | Dövlət xidmətinin göstərilməsi üçün zəruri olan sənəd və ya məlumat digər dövlət qurumunda mövcud olduğu halda, həmin sənədin və ya məlumatın vətəndaşdan tələb edilmədən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət qurumundan alınmasının təmin edilməsi üçün bu prinsipin sahəvi normativ hüquqi aktlarda təsbit edilməsi, habelə bu prinsipə əsaslanan elektron xidmətlərin sayının artırılması | 2020-2022 | Məlumat bazalarının Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına “Elektron Hökumət İnformasiya Sistemi” vasitəsilə inteqrasiyasına dair Əmək və Əhalinin Sosial Müdafiəsi, Ədliyyə, Təhsil nazirlikləri, Dövlət Miqrasiya Xidməti və Dövlət İmtahan Mərkəzi ilə imzalanmış Razılaşmalar əsasında aidiyyəti məlumatların Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına ötürülməsi prosesi çərçivəsində zəruri tədbirlər həyata keçirilmişdir. Belə ki:<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumat bazalarının Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına “Elektron Hökumət İnformasiya Sistemi” vasitəsilə inteqrasiyasına dair imzalanmış Razılaşma üzrə işlərin sürətləndirilməsi məqsədi ilə Dövlət Statistika Komitəsi tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məktub (09.04.2020-ci il tarixli, № 01/3-28) göndərilmiş, nazirliyin əməkdaşları ilə qarşılıqlı müzakirələr aparılmış, eyni zamanda sentyabr ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Statistika Komitəsinin və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin məsul əməkdaşlarının iştirakı ilə video-görüş təşkil edilmişdir. Görüşdə inteqrasiya olunacaq məlumatların həcmi, dövriliyi, təqdim olunma qaydaları müzakirə olunmuş, eyni zamanda inteqrasiya üçün müvafiq veb-servisin yazılması istiqamətində zəruri işlərin aparıldığı bildirilmişdir. Oktyabr ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim olunmuş veb-servisin texniki sənədləri əsasında məlumatların qəbulu üçün veb-servis hazırlanmış və Dövlət Statistika Komitəsi tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə məlumatların qarşılıqlı inteqrasiyası təşkil olunmuşdur. Razılaşmada qeyd olunan məlumatların inteqrasiyası üzrə sınaq yoxlamaları həyata keçirilmiş və aşkar olunmuş çatışmazlıqlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilmişdir. Dekabr ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən |

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| | | | ötürüləcək məlumatların ümumi bazası Dövlət Statistika Komitəsinə yenidən təqdim olunmuşdur. Hazırda təqdim edilmiş məlumatların təhlili aparılır.<br>Ədliyyə Nazirliyi yanında yaradılmış Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin məlumat bazasının Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına "Elektron Hökumət İnformasiya Sistemi" vasitəsilə inteqrasiyasına dair imzalanmış Razılaşmaya uyğun olaraq, avqust ayında Ədliyyə Nazirliyinin, Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin məsul əməkdaşları arasında məlumatların inteqrasiyasının təşkili ilə bağlı video-görüş təşkil edilmişdir. Görüşdə Əhalinin Dövlət Reyestrindən ölkə əhalisinin doğulduğu və yaşayış yeri, cins, yaş, habelə ailə vəziyyəti üzrə göstəriciləri əsasında məlumat bazasının formalaşdırılması müzakirə edilmişdir. Eyni zamanda göstəricilərin inzibati şəhər və rayon bölgüsündə hazırlanması məqsədilə Ədliyyə Nazirliyi tərəfindən İnzibati Ərazi Bölgüsü Təsnifatının son versiyasının onlara təqdim olunması xahiş edilmişdir. Görüşdən sonra sözügedən təsnifat qarşı tərəfə təqdim olunmuşdur. Dekabr ayında Ədliyyə Nazirliyi tərəfindən bildirilmişdir ki, hazırda veb-servislərin yazılma prosesi tamamlanmaq ərəfəsindədir. Bu proses tam başa çatdırıldıqdan sonra veb-servislər Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə təqdim olunacaqdır.<br>Təhsil Nazirliyinin məlumat bazalarının Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına "Elektron Hökumət İnformasiya Sistemi" vasitəsilə inteqrasiyasına dair imzalanmış Razılaşmaya uyğun olaraq Dövlət Statistika Komitəsi tərəfindən "İnformasiya sisteminə inteqrasiya edilmək üçün tələb olunan məlumat hədləri" dəqiqləşdirilmiş və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə və Təhsil Nazirliyinə təqdim edilmişdir. Eyni zamanda, avqust ayında Təhsil Nazirliyi ilə Dövlət Statistika Komitəsi aparatının əməkdaşlarının iştirakı ilə video-görüş təşkil edilmişdir. Görüşdə məlumatların inteqrasiyası ilə bağlı müzakirələr aparılmış, qarşı tərəfdən təhsil müəssisələrinin siyahısının Dövlət Statistika Komitəsinin məlumat bazasındakı siyahı ilə uyğunlaşdırılmasına zərurət yarandığı bildirilmişdir. Təqdim olunmuş siyahı Dövlət Statistika Komitəsi tərəfindən dəqiqləşdirilərək Təhsil Nazirliyinə göndərilmişdir. Görüşdə veb-servisin Təhsil Nazirliyi tərəfindən yenidən hazırlanmasına zərurətin olduğu bildirilmişdir. Hal-hazırda Təhsil Nazirliyi tərəfindən bu istiqamətdə müvafiq işlər həyata keçirilir. |

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| | | | Dövlət Miqrasiya Xidmətinin məlumat bazalarının Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına "Elektron Hökumət İnformasiya Sistemi" vasitəsilə inteqrasiyasına dair imzalanmış Razılaşma ilə bağlı Dövlət Miqrasiya Xidməti tərəfindən tələb olunan məlumatların inteqrasiyasının təmin edilməsi üçün zəruri işlər (veb-servisin yazılması) davam etdirilir və 2020-ci ilin sonunadək yekunlaşdırılacağı nəzərdə tutulmuşdur.<br>Dövlət İmtahan Mərkəzinin məlumat bazalarının Dövlət Statistika Komitəsinin statistik məlumat bazasına "Elektron Hökumət İnformasiya Sistemi" vasitəsilə inteqrasiyasına dair imzalanmış Razılaşmaya uyğun olaraq, məlumatların inteqrasiyası təşkil edilmişdir. Dövlət orqanlarında vəzifələrin təsnifatları üzrə ayrı-ayrı vəzifələrdə çalışan dövlət qulluqçularının sayına dair statistik məlumatların istifadəçi tələbatının ödənilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını nəzərə alaraq, Razılaşmanın əlavəsində əksini tapmış "Təsnifatlar üzrə inzibati vəzifələrdə çalışan dövlət qulluqçularının (dövlət qulluğunun yardımçı vəzifələri daxil olmaqla) sayı" göstəricisinin "İnzibati və yardımçı vəzifələrin ayrı-ayrı təsnifatları bölgüsündə hər bir dövlət qulluğu vəzifəsi üzrə dövlət qulluqçularının sayı" göstəricisi kimi nəzərə alınmasını və həmin məlumatların da Dövlət Statistika Komitəsinə ötürülməsi ilə bağlı Komitə tərəfindən Dövlət İmtahan Mərkəzinə məktub göndərilmişdir. Hazırda Dövlət İmtahan Mərkəzi tərəfindən müvafiq istiqamətdə zəruri işlər həyata keçirilir. |
| 4.7. | Elektron Hökumət infrastrukturunun təkmilləşdirilməsi və Elektron Hökumət İnformasiya Sisteminə qoşulan informasiya sistemləri və ehtiyatlarının sayının artırılması | 2020-2022 | "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli Fərmanına uyğun olaraq Elektron Hökumət İnformasiya Sisteminə (EHİS) qoşulmuş elektron xidmətlərlə yanaşı, müxtəlif dövlət orqanlarında formalaşan və elektron xidmətlərin göstərilməsi üçün əhəmiyyət kəsb edən informasiya ehtiyatlarının da EHİS-ə inteqrasiyasının zəruriliyi nəzərə alınaraq, dövlət informasiya ehtiyatları və sistemlərinin rəsmi statistik məlumatlarla təmin olunması məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə qarşılıqlı müzakirələr aparılmışdır. Hazırkı mərhələdə EHİS-də yaradılan kommunal, sosial və kənd təsərrüfatı sahələri üzrə altsistemlər üçün rəsmi statistik məlumatlara olan ehtiyac sözügedən Agentlik tərəfindən hələlik tam müəyyən edilməmişdir. Buna baxmayaraq, Komitənin istifadəçilər üçün açıq məlumatlarını özündə ehtiva edən informasiya sistemlərinin EHİS-ə inteqrasiyasının müvafiq qərarların qəbulu üçün |

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| | | | töhfə olacağı nəzərə alınaraq Dövlət Statistika Komitəsinin nəinki kommunal, sosial və kənd təsərrüfatı sahələri, eləcə də iqtisadiyyatın qalan sahələrinə dair statistik məlumatları ehtiva edən "Azərbaycanın Statistik İnformasiya Xidməti – ASİS" informasiya sisteminin EHİS-ə inteqrasiyası məqsədəuyğun hesab edilmişdir. Hazırda bu istiqamətdə texniki məsələlərin həlli üçün zəruri tədbirlər görülür. |
| 5.4. | Dövlət orqanlarında kollegial qərarların qəbulu prosedurlarında, dövlət komissiyaları və işçi qruplarda vətəndaş cəmiyyəti institutlarının, o cümlədən qeyri-hökumət təşkilatlarının iştirakının və təmsilçiliyinin genişləndirilməsi | 2020-2022 | Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 15 sentyabr tarixli, 346 nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının tərkibinə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının, elmi təşkilatların, kütləvi informasiya vasitələrinin və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının nümayəndələri də daxil edilmişlər və Statistika Şurasının iclaslarında fəal iştirakını təmin etmək üçün müzakirə olunacaq məsələlərə dair köməkçi sənədlər əvvəlcədən onlara göndərilir. |
| 5.5. | İctimai şuraların əhəmiyyətinin artırılması, dövlət orqanlarında yaradılmış ictimai şuraların sayının çoxaldılması, şuralarda müzakirə edilən məsələlərin əhatə dairəsinin genişləndirilməsi, ictimai şuraların fəaliyyəti ilə bağlı maarifləndirmə və təbliğat işlərinin gücləndirilməsi və dövlət qurumlarının rəsmi internet resurslarında əks etdirilməsi | 2020-2022 | Dövlət Statistika Komitəsi yanında Statistika Şurasının noyabr ayında videokonfrans formatında keçirilmiş iclasında Dövlət Statistika Komitəsinin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyəti, Keyfiyyəti idarəetmə sisteminin tətbiqi ilə bağlı görülmüş işlər, Milli "Sənaye məhsullarının statistik təsnifatı" və 2021-ci il üçün statistik işlər proqramının layihələri müzakirə edilmişdir. Elmi-metodoloji şuranın 2020-ci ildə keçirilmiş 6 iclasında isə 31 məsələ müzakirə edilmişdir. Statistika Şurası və Elmi-metodoloji şuranın fəaliyyəti haqqında məlumatlar Komitənin rəsmi internet səhifəsində yerləşdirilmiş və mütəmadi olaraq yenilənmişdir. |
| 5.6 | Açıq Hökumətin Təşviqinə dair Hökumət - Vətəndaş Cəmiyyəti Dialoqu Platforması çərçivəsində mütəmadi müzakirələrin keçirilməsi və Platformanın fəaliyyətinin dəstəklənməsi | 2020-2022 | Açıq Hökumətin Təşviqinə dair Hökumət-Vətəndaş Cəmiyyəti Dialoqu Platformasının fəaliyyətinin dəstəklənməsi üçün tələb olunacaq rəsmi statistik göstəricilərin siyahısının müəyyənləşdirilməsi və həmin göstəricilər üzrə statistik məlumatların vaxtında hazırlanması məqsədilə Dövlət Statistika Komitəsinin üzərinə düşəcək vəzifələr haqqında məlumatın Komitəyə təqdim edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına məktubla (10.06.2020-ci il tarixli, № 01/2-34) müraciət edilmişdir. Şuranın Katibliyindən Platformanın fəaliyyəti üçün ən müxtəlif sahələri əhatə edən rəsmi statistik məlumatlara zərurətin olduğu və bununla bağlı Dövlət Statistika Komitəsində Platforma ilə kommunikasiyanı həyata keçirəcək məsul şəxsin təyin edilməsi və Komitənin statistik nəşrlərinin Platformaya təqdim olunması xahiş edilmişdir. Dövlət Statistika Komitəsi sözügedən iş üzrə təyin edilmiş məsul |

| Sıra N-si | Tədbirin adı | İcra müddəti | Görülmüş işlər |
|---|---|---|---|
| | | | şəxs və nəşr ediləcək illik statistik məcmuələrin göndəriləcəyi ilə bağlı Şuranın Katibliyinə məlumat vermiş (02.07.2020-ci il tarixli, 01/2-37 nömrəli məktub) və dərc edilmiş bir sıra illik nəşrləri Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının Katibliyinə göndərmişdir. |